

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 116 (21.017)

*20 iyun 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev hərbi-texniki sahədə də konstruktiv əməkdaşlığımızın daha da genişləndiyini, bu əməkdaşlığın müsbət nəticələr verdiyini və yaxşı perspektivlərə malik olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişafına Azərbaycanın da önəm verdiyini vurğulayaraq Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin artmasını strateji əməkdaşlığımızın inkişaf etdirilməsi istiqamətində ölkələrimizin birgə səylərinin yaxşı nəticəsi kimi dəyərləndirdi.

Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozin Rusiya tərəfinin Azərbaycan xalqı və dövləti ilə münasibətlərə hörmətlə yanaşdığını bildirərək ölkəmizlə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi və Rusiya-Azərbaycan birgə komissiyasının həmsədri kimi bu istiqamətdə səylərini əsirgəməyəcəyini dedi.

Dövlətimizin başçısı iki ölkənin birgə səyləri ilə əməkdaşlığımızın bundan sonra daha da genişlənəcəyinə və Rusiya-Azərbaycan birgə komissiyasının qarşıdakı dövrlərdə fəaliyyətinin əməli nəticələr verəcəyinə əminliyini ifadə etdi.

## Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin fəaliyyətini təkmilləşdirmək və peşə-ixtisas təhsilinin səmərəliliyini artırmaq məqsədilə **qərara alıram:**

1. Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 iyun 2014-cü il*

## Şərurda tikinti-quruculuq işləri bütün sahələri əhatə edir

***Dövlətin yüksək qayğısı sayəsində Şərur rayonunun inkişaf tempi daha da artır. 2014-cü ilin ötən ayları ərzində həyata keçirilən tədbirlər, qazanılan uğurlar bunu bir daha sübut edir. Mayın 30-da daha bir obyekt – Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzi istifadəyə verilmişdir.***

Həyata keçirilən tikinti-quruculuq işlərinin sırasına Şərur şəhərinin və rayon mərkəzinə yaxın bütün kəndlərin içməli su və kanalizasiya sisteminin yenidən qurulması da daxildir. Böyük həcmdə dövlət vəsaiti hesabına başa gələcək bu layihə icra olunduqdan sonra əhali fasiləsiz və ekoloji cəhətdən təmiz içməli su ilə təmin ediləcək, çirkab sularının axıdılmasında heç bir problem yaranmayacaqdır.

Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərinin bir istiqamətini də yaşayış binalarının təmir olunması və yenidən qurulması təşkil edir. Bu tədbirlərin davamı olaraq, Şərur şəhərinin Nəriman Nərimanov küçəsindəki 7 nömrəli, 18 mənzilli binada əsaslı təmir işləri aparılır.

Tikinti-quruculuq işləri Şərurun kəndlərində də geniş vüsət almışdır. Belə obyektlərdən biri yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin Cəlilkənddəki fəaliyyətini özündə əks etdirən muzey üçün yeni binanın inşa olunmasıdır. Məlumat üçün bildirək ki, mövcud muzey binası sökülərək müasir arxitektura üslubunda tikilmiş yeni binada əsas inşaat işləri başa çatdırılıb. Muzey binasına yaxın ərazidə isə mədəniyyət evi yenidən qurulur və tarixi abidə – Buxzana əsaslı təmir olunur.

Cəlilkənddə əhalinin məişət problemlərinin həlli üçün nəzərdə tutulmuş xidmət mərkəzinin tikintisində də işlər sürətlə gedir. Dəmir-beton işlərinin başa çatdığı obyektdə hazırda arakəsmələr hörülür, binanın daxilində və fasad hissəsində suvaq işləri aparılır, dam örtüyü vurulur. Xidmət mərkəzində ət satışı dükanı, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, bərbərxana və qadın gözəllik salonu fəaliyyət göstərəcək.

Kürkənddə üç mərtəbədən ibarət 216 şagird yerlik məktəb binası, xidmət və kənd mərkəzləri, Diyadində üçmərtəbəli, 88 şagird yerlik məktəb binası, kənd və xidmət mərkəzləri tikilir, Püsyanda 630 şagird yerlik məktəb binası, həkim ambulatoriyası və kənd mərkəzi, Dizədə 198 şagird yerlik məktəb binası yenidən qurulur, həmin yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası üçün yeni binalar inşa olunur, Axurada 198 şagird yerlik məktəb binası əsaslı təmir edilir.

Tikintilərdə, əsasən, yerli inşaat materiallarından istifadə olunur. İnşaatçılar öhdələrinə götürdükləri obyektlərin tikintisini nəzərdə tutulmuş vaxtda başa çatdırmağa çalışırlar.

Beləcə, Şərur rayonu özünün tarixi-mədəni ənənələrini qoruyub saxlamaqla hərtərəfli sosial-iqtisadi inkişaf mərhələsini yaşamaqdadır. Gündən-günə müasirləşən, aparılan quruculuq işləri nəticəsində yeni görkəm alan, gözəlləşən Şərur daha uca zirvələr yolundadır.

## Növbəti əmək yarmarkasında 24 nəfərə göndəriş verilib

"Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər)" birinci mərhələsinin uğurlu icrası işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azalması ilə nəticələnib. Muxtar respublikamızda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir". Bu fikirlər dünən Ordubad rayonunda keçirilən əmək yarmarkasında səsləndirilib.

Tədbiri giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov açaraq bildirib ki, bir neçə ildir, mərkəzin əməkdaşları bölgə sakinlərinin məşğulluğunun təmin edilməsi üçün müxtəlif tədbirlər həyata keçirir, rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində olan boş iş yerləri haqqında məlumatlar toplayırlar. Həmin iş yerləri məşğulluğun təmin edilməsində ən çevik vasitə olan əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim olunur. Bugünkü əmək yarmarkası da işaxtaran vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin edilməsi istiqamətində ardıcıl olaraq həyata keçirilən mühüm tədbirlərdən biridir.

İşaxtaran vətəndaş Səməyə Həsənova işaxtaranlara, xüsusilə gənclərə istəklərinə uyğun iş yeri tapmaq üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirib.

Əmək yarmarkasında Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli çıxış edərək muxtar respublikamızda, eləcə də Ordubad rayonunda əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. Yarmarkaya 19 dövlət və özəl təşkilatdan 228 boş iş yeri çıxarılmışdı. Həmin gün 24 nəfərə göndəriş verilib.

Bu gün əmək yarmarkası Babək rayonunda keçirilir.

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada muxtar respublikanın dövlət orqanlarının kadr qurumları ilə bağlı seminar keçirilib. Seminarı komissiyanın Dövlət qulluğuna kadrların seçilməsi şöbəsinin müdiri Rafiq Nəcəfov açıb.***

## Dövlət orqanlarının kadr qurumları ilə bağlı seminar



Komissiyanın sektor müdiri Arzuman İmanov "Dövlət qulluqçularının şəxsi işinin aparılması qaydaları" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, Azərbaycan Respublikasında son illərdə müasir tələblərə cavab verən dövlət qulluğu sisteminin formalaşdırılması istiqamətində mühüm addımlar atılıb. Dövlət qulluğunun qanunvericilik bazasının yaradılması, dövlət qulluqçularının müxtəlif sosial hüquqlarının təmin olunması məqsədilə bir sıra normativ-hüquqi aktlar qəbul edilib. Tədbirdə həmçinin dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlıq işinin və Azərbaycan Respublikasının dövlət qulluqçularının reyestrinin aparılması, dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları haqqında məlumat verilib, dövlət orqanları tərəfindən komissiyaya göndərilən sənədlərdə daha çox rast gəlinən nöqsanlar və onların aradan qaldırılması yolları müzakirə edilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Seminarda muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının kadr qurumlarının nümayəndələri iştirak ediblər.

## Babək rayonunda sığorta fəaliyyəti müzakirə olunub



***İyunun 19-da Babək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr barədə yığıncaq keçirilmişdir. Yığıncağı Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışmışdır.***

Yığıncaqda Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" müşavirənin keçirilməsindən sonra bu sahədə görülən işlər haqqında məlumat vermişdir. Hikmət Əsgərov vaxtında sığorta olunmağın əhəmiyyətindən danışmış, bunun ictimai mədəniyyət kimi cəmiyyətdə geniş yayılmasında zəruri tədbirlərin həyata keçirildiyini bildirmişdir. Baş direktor Babək rayonunda əmlakı yanğından zərərçəkmiş ayrı-ayrı vətəndaşlara dəymiş zərərlərin ödənilməsi ilə bağlı əyani faktlar göstərərək sığortanın faydalarından da bəhs etmişdir. O, çıxışında həmçinin qeyd etmişdir ki, ötən müddətdə Babək rayonunda da sığorta fəaliyyəti istiqamətində müəyyən işlər görülmüş, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayı artmışdır. Çıxış zamanı Babək rayonunda sığorta fəaliyyəti sahəsində görülmüş işlər təhlil olunmuş, burada daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakının sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə görülmüş işlərdən danışılmışdır.

Qeyd olunmuşdur ki, Babək rayonunda görülmüş işlərlə yanaşı, daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Bunun üçün qarşıya qoyulan vəzifələrin icrasına diqqət artırılmalıdır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti Polşa Respublikasında səfərdə olmuşdur



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalovun başçılıq etdiyi nümayəndə heyəti 14-17 iyun tarixlərində Polşa Respublikasının Krakov şəhərində səfərdə olmuş, muxtar respublikanın 90 illik yubileyi münasibətilə keçirilən “Naxçıvan günləri”ndə iştirak etmişdir.*

İyunun 16-da nümayəndə heyətinin iştirakı ilə Polşa Elmlər Akademiyasının Krakov Bölməsində və Krakov şəhərindəki Yaqellon, AGH Elm və Texnologiya, eləcə də İqtisadiyyat universitetlərində görüşlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov muxtar respublika ilə Krakov şəhəri arasında elm və təhsil sahəsində əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu bildirmiş, qarşılıqlı əməkdaşlığın əhəmiyyətini vurğulamışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov muxtar respublikada elmin və təhsilin inkişafına göstərilən diqqət və qayğıdan, bu sahədə yaradılan müasir infrastrukturdan bəhs etmişlər. Qeyd olunmuşdur ki, bu gün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti ilə dünyanın nüfuzlu elm müəssisələri və ali təhsil ocaqları arasında səmərəli əməkdaşlıq qurulmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə Polşa Elmlər Akademiyasının Krakov Bölməsi arasında “2014-2016-cı illər üzrə elm sahəsində əməkdaşlıq haqqında” protokol və Naxçıvan Dövlət Universiteti ilə Krakov İqtisadiyyat Universiteti arasında niyyət protokolu imzalanmış, ali təhsil müəssisələri arasında əlaqələrin qurulması barədə razılıq əldə edilmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikasının sahibkarları ilə Krakov şəhərini təmsil edən iş adamları arasında da işgüzar görüş olmuşdur.

Krakov şəhər meriyasının sahibkarlarla iş üzrə müşaviri Yan Okonski, Krakov şəhərinin ticarət və sənaye palatasının direktoru Votslav Andruşko və Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov çıxış etmişlər. Görüşdə əməkdaşlığın perspektiv imkanları nəzərdən keçirilmiş, qarşılıqlı investisiya mühitinin yaradılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmış və iş adamları arasında niyyət protokolu imzalanmışdır.





* * *

İyunun 16-da Krakov şəhər meriyasında Naxçıvan nümayəndə heyətinin iştirakı ilə görüş keçirilmişdir.

Krakov şəhərinin meri Yatsek Mayxrovski nümayəndə heyətini salamlayaraq onları Krakovda görməkdən şad olduğunu bildirmiş, Polşa-Azərbaycan ikitərəfli dostluq münasibətlərinin uğurla inkişaf etdiyini xatırlatmış, əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu diqqətə çatdırmışdır. Muxtar respublikanın yaradılmasının 90 illiyi münasibətilə nümayəndə heyətinə təbriklərini çatdıran Yatsek Mayxrovski səfərin əlaqələrin inkişafına mühüm töhfə verəcəyinə əminliyini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov nümayəndə heyətinə göstərilən diqqətə görə minnətdarlığını bildirmiş, muxtar respublikanın ərazisi, əhalisi, idarəetmə quruluşu və sosial-iqtisadi inkişafı haqqında ətraflı məlumat vermişdir. Azər Zeynalov Krakov şəhərində “Naxçıvan günləri”nin keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu qeyd etmişdir.

Görüşdə əlaqələrin müxtəlif sahələrdə inkişafı üçün yaxşı perspektivin olduğu diqqətə çatdırılmışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov Krakov şəhərinin meri Yatsek Mayxrovskiyə muxtar respublikanın 90 illik yubileyi münasibətilə buraxılan xatirə medalını təqdim etmişdir.

Görüşdə Azərbaycan Respublikasının Polşadakı fövqəladə və səlahiyyətli səfiri Həsən Həsənov və Krakov şəhər meriyasının rəsmi şəxsləri iştirak etmişlər.

Həmin gün Krakov şəhər meriyasının binasında Naxçıvan nümayəndə heyətinin şərəfinə rəsmi nahar verilmişdir.

* * *

İyunun 16-da Krakov şəhərinin Opera Teatrında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş konsert proqramı olmuşdur.

Konsertdən əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək demişdir: “Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında dostluq və əməkdaşlıq münasibətləri gündən-günə inkişaf edərək genişlənir. Bu münasibətlərin bütün sahələrdə davamlı xarakter alması üçün ciddi əsaslar vardır. Bu, bir tərəfdən xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin dərinləşməsindən irəli gəlirsə, digər tərəfdən bu əlaqələr qarşılıqlı münasibətlərin qədim tarixinə söykənir. Polyak və Azərbaycan xalqları tarixən dostluq şəraitində yaşamışlar. Həm Krakov, həm də Naxçıvan qədim dövlətçilik ənənələrinə və zəngin tarixə malikdirlər. Naxçıvan ən qədim sivilizasiya beşiklərindən biridir və beş min illik şəhər mədəniyyətinə malikdir. Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikasının yubileyi Azərbaycanda və ondan kənarda geniş şəkildə qeyd edilir. Yubiley münasibətilə Bakıda, Naxçıvan şəhərində, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində tədbirlər keçirilmiş, dünyanın nüfuzlu mətbu orqanlarında muxtar respublikaya həsr olunmuş məqalələr dərc edilmiş, kitab və bukletlər buraxılmışdır. Bu gün Polşa Respublikasının tarixi paytaxtı Krakov şəhərində Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə “Naxçıvan günləri” keçirilir”.



Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. 5,5 min kvadratkilometr əraziyə malik olan Naxçıvan Muxtar Respublikası şimalda və şərqdə Ermənistan Respublikası ilə 246 kilometr, qərbdə və cənubda İran İslam Respublikası ilə 204 kilometr və Türkiyə Respublikası ilə 11 kilometr məsafədə həmsərhəddir. Muxtar respublikanın ərazisi 7 inzibati rayona bölünmüşdür. 5 şəhəri, 8 qəsəbəsi, 207 kəndi vardır. 430 mindən çox əhali yaşayan Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini isə muxtar respublikanın məhkəmələri həyata keçirirlər. Konstitusiyaya əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikanın Ali vəzifəli şəxsidir. 5 il müddətinə seçilən Ali Məclis 45 deputatdan ibarətdir.

Azər Zeynalov Naxçıvan Muxtar Respublikasının 20 ildən artıq bir dövrdə Ermənistan tərəfindən blokadaya alındığını bildirərək demişdir ki, buna baxmayaraq, muxtar respublika yerli resurslar hesabına dinamik inkişaf edir. Burada istehsal olunan məhsullara xarici ölkələrdə də böyük tələbat vardır. Təsadüfi deyil ki, muxtar respublika 50-yə yaxın xarici ölkə ilə iqtisadi-ticarət əlaqəsinə malikdir. Ümid edirik ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Polşa, o cümlədən Krakov şəhəri arasında da faydalı əməkdaşlıq qurulacaq və yaxın perspektivdə dinamik inkişaf edəcəkdir. Polyak atalar məsəlində deyilir ki, *“Əsl Polşanın nədən ibarət olduğunu bilmək istəyirsənsə, gərək Krakova gələsən”.* Səfər çərçivəsində şəhərin infrastrukturu, müasir inkişafı, qədim tarixi və polyak xalqına məxsus olan zəngin mədəni irsi ilə tanışlıq zamanı bu kəlamın əbəs yerə deyilmədiyinin şahidi olduq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov Krakov şəhərində “Naxçıvan günləri”nin yüksək səviyyədə təşkilinə görə Polşa hökumətinə, Krakov meriyasına və Azərbaycan Respublikasının Polşadakı səfirliyinə hörmət və ehtiramını bildirmişdir.

Tədbirdə Krakov şəhər merinin müavini və Azərbaycan Respublikasının Polşadakı səfiri Həsən Həsənov çıxış etmişlər.




Sonra naxçıvanlı incəsənət ustalarının ifasında konsert proqramı təqdim edilmişdir. Musiqi kollektivlərinin və Şərur Xalq Yallı Ansamblının çıxışları alqışlarla qarşılanmışdır.

Konsert proqramından sonra tədbir iştirakçıları Naxçıvan Muxtar Respublikasından bəhs edən kitab, albom və kataloqlardan, muxtar respublikada istehsal olunan yerli məhsullardan, eləcə də Naxçıvanla bağlı fotoşəkillərdən ibarət sərgiyə baxmışlar.

**“Şərq qapısı”**

---

*20 iyun qaz təsərrüfatı işçilərinin peşə bayramıdır*

## Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında qaz təsərrüfatının mühüm rolu vardır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 12 iyun tarixli Sərəncamına əsasən, hər il iyunun 20-si “Qaz təsərrüfatı işçilərinin peşə bayramı günü” kimi qeyd olunur.***

Ölkəmizin təbii qazla təmin olunması prosesi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərindən başlayaraq dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanın bütün regionlarına təbii qazın verilməsinə başlanılmışdır. 1980-ci ildə Naxçıvana da yüksəktəzyiqli qaz xətti çəkilmiş, yaşayış məntəqələrinin 52 faizi qazlaşdırılmışdır. Bu zaman muxtar respublikada təbii qazdan istifadə edən abonentlərin sayı 33 mindən artıq olmuşdur. Lakin ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində muxtar respublikamız blokada vəziyyətinə düşmüş, elektrik və qaz xətləri kəsilmişdi.

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində 2005-ci ildən etibarən Naxçıvana təbii qazın verilməsinə başlanılmışdır. İki il müddətində muxtar respublikada qazlaşdırma prosesi tam başa çatdırılmışdır. Hazırda Naxçıvan Muxtar Respublikasının bütün yaşayış məntəqələri və istehsal müəssisələri fasiləsiz olaraq təbii qazla təmin edilir. Naxçıvana təbii qazın verilməsi ilə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə 2005-ci ildə “Naxçıvanqaz” Məhdud Məsuliyyətli Cəmiyyəti, 2010-cu ildə isə “Naxçıvanqaz” İstehsalat Birliyi yaradılmışdır.

Bu gün muxtar respublikada istehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır, mövcud qaz xətlərində təmir işləri aparılır, istismar müddəti başa çatan xətlər yeniləri ilə əvəz olunur. 2012-ci ilin aprel ayında tikintisinə başlanılan Naxçıvan-Şahbuz ortatəzyiqli qaz kəməri ötən ilin yanvar ayında istifadəyə verilmişdir. 27 kilometrlik bu qaz xəttinin 9 kilometri diametri 559 millimetr olan yüksəktəzyiqli, 18 kilometri isə diametri 273 millimetr olan ortatəzyiqli izolyasiyalı borularla çəkilmiş, texniki tələblərə yüksək səviyyədə əməl edilmişdir. Bu da lazım gəldikdə qaz xəttində ehtiyatın yaradılmasına, texniki itkilərin qarşısının alınmasına, təbii qazdan səmərəli və dayanıqlı şəkildə istifadəyə imkan vermişdir. Naxçıvan-Şahbuz qaz xəttinin istifadəyə verilməsi ilə Babək rayonunda 8700, Şahbuz rayonu isə tam əhatə olunmaqla, 4500-dən artıq abonent davamlı təbii qazla təmin olunmuşdur.

Uzunluğu 81,6 kilometr olan Naxçıvan-Sədərək qaz kəməri 8 millimetr qalınlıqda 558,8 millimetr diametrli izolyasiyalı borularla yenidən çəkilmişdir. Tikintisi yüksək keyfiyyətlə və bütün texniki normalar nəzərə alınmaqla həyata keçirilən qaz kəmərində katod qorumasına nəzarət etmək üçün 107 yerdə ölçmə dirəyi, qazpaylayıcı stansiya və qəza halları zamanı kəmərdən qazın tamamilə boşaldılmaması üçün 2 kran meydançası quraşdırılmışdır. 75 atmosfer işçi təzyiqə hesablanmış kəmər 20 atmosfer təzyiqlə istismar olunur. Hazırda Naxçıvan-Culfa magistral qaz kəmərində də təmir-bərpa işləri aparılır.

Bu gün muxtar respublikanın qaz təminatı işi ilə birbaşa məşğul olan “Naxçıvanqaz” İstehsalat Birliyinin qarşısında duran əsas hədəflərdən biri təbii qaz sərfiyyatında israfçılığa yol verilməməsidir. Bu məqsədlə qaz şəbəkəsində baş verən sızmaların yeri dəqiqləşdirilir və tamamilə aradan qaldırılır. Muxtar respublikanın qaz xətlərindəki ölçü qovşaqlarında uzaq məsafədən operativ nəzarəti həyata keçirən “ROK-407” və “Elester” tipli elektron sayğacların quraşdırılması işi aparılır. Artıq qaz sərfiyyatı ilə bağlı bütün göstəricilərə “Naxçıvanqaz” İstehsalat Birliyində yaradılan mərkəzdən nəzarət etmək mümkündür.

Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi enerji təhlükəsizliyinin təmin olunmasına səbəb olmuşdur. Çünki iqtisadi inkişafda böyük əhəmiyyətə malik olan yanacaq-energetika sahəsində təbii qaz xüsusi yer tutur. Artıq muxtar respublikada təbii qazla işləyən elektrik stansiyaları fəaliyyət göstərir. Bu gün Naxçıvan Qaz-Turbin və Modul Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi muxtar respublikanın tələbatını ödəməklə yanaşı, ixrac imkanlarını da xeyli artırmışdır.

2005-ci ildən muxtar respublikanın təbii qazla davamlı və keyfiyyətli təminatı təbiətin qorunmasında və zənginləşdirilməsində də mühüm rol oynamışdır. Mənzillərin mavi yanacaqla təmin olunması meşə sahələrinin qırılmasının qarşısını almış, yeni yaşıllıq sahələrinin salınmasına başlanmışdır.

Muxtar respublikanın qaz təsərrüfatında idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, itkilərin azaldılması yolu ilə səmərəliliyin artırılması, qazın nəqli və paylanmasında operativ idarəetmə mexanizmlərinin təşkili, texniki istismar və texniki təhlükəsizlik qaydalarının yerinə yetirilməsinə nəzarətin gücləndirilməsi istehlakçıların təbii qazla etibarlı təminatına şərait yaratmışdır. Təbii qazdan təhlükəsiz və səmərəli istifadə olunması məqsədilə abonentlərin maarifləndirilməsinə xüsusi diqqət yetirilir, baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün mütəmadi olaraq iş aparılır. Qaz İstismar idarələrindəki qəza dispetçer xidmətlərinin **“104”** nömrəli qaynar xətti günün istənilən saatında istehlakçıların müraciətlərini qəbul edir.

Peşə bayramlarını qeyd edən qaz təsərrüfatı işçiləri bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edərək muxtar respublikadakı abonentlərin təbii qazla etibarlı surətdə təminatına şərait yaradacaqlar.

***“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti***




# Gənclər və idman siyasəti: strateji hədəflər və uğurlu icra

***"Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır". Azərbaycan dövlətini Azərbaycan gəncliyinin qarantına çevirən ulu öndər Heydər Əliyevin bu fikirləri bizə gələcəyə gedən yolu göstərir. Eyni zamanda bu fikir gənclik üçün – sabah üçün bu günün daşıdığı məsuliyyətdən xəbər verir. Öyrətmək isə müəyyən bir konsepsiya, proqram, fəaliyyət planı əsasında həyata keçirildikdə effektli olur.***

Azərbaycan gəncliyinə nəyi və necə öyrətməyin lazım olduğunu, dövlətin gənclərlə işinin təşkil olunmasının konseptual əsaslarını məhz ümummilli liderimiz Heydər Əliyev müəyyənləşdirib.

Bu konsepsiyanın aşağıdakı mühüm strateji hədəfləri var:

*-milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq;*

*-gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;*

*-gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;*

*-gənclərin təşkilatlanmasını təmin etməklə onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;*

*-gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və məsuliyyət hissini formalaşdırmaq;*

*-Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.*

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji hədəflərə nail olunması istiqamətində görülən işlər bu gün görülməkdə olan işlər üçün baza rolunu oynadı. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycançılığı milli ideologiya kimi qəbul edən gəncliyi formalaşdırdı, elmi və intellektual potensialın artırılması üçün gənclərin ölkəmizdə və ölkəmizdən kənarda




yüksəksəviyyəli təhsilə cəlb edilməsinə nail oldu, məhz onun prezidentliyi dönəmində Azərbaycanda çoxsaylı gənclər təşkilatları yaradıldı, gənclər forumları keçirildi, bu gün artıq dövlət siyasətini müəyyənləşdirən və həyata keçirən, o dönəmdə isə gənc olan kadrlar seçilərək dövlət idarəçiliyinə cəlb edildi. Gənclər nəinki beynəlxalq aləmə inteqrasiyadan bəhrələndilər, hətta dünyada Azərbaycanı layiqincə təmsil etməyə başladılar.

Ümummilli liderin müəyyənləşdirdiyi konseptual əsaslar üzərində isə dövlət başçısı cənab İlham Əliyev tərəfindən reallaşdırılan proqram xarakterli siyasət bu gün öz bəhrəsini verir. Naxçıvan Muxtar Respublikası isə bu proqram xarakterli siyasətin daha çox milli əsaslara söykənməklə həyata keçirildiyi bir məkana çevrilib. Naxçıvan ümummilli liderin arzuladığı Naxçıvana çevrildiyi kimi, burada yetişən gənclik də ümummilli liderin amallarına sadiq ruhda tərbiyə edilir.

Bəs bu gün Naxçıvanda gənclər siyasətinin başlıca istiqamətləri hansılardır? Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə həyata keçirilən fəaliyyətə, muxtar respublikada gənclər və idman sahəsində reallaşdırılan tədbirlərə nəzər saldıqda bu istiqamətləri aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

*-gənclərin intellektual inkişafının təmin edilməsi;*

*-gənclərdə liderlik bacarıqlarının formalaşdırılması;*

*-gənclərin yaradıcılıq potensialının üzə çıxarılması;*

*-gənclərin vətənpərvərlik tərbiyəsi;*

*-gənclərin ictimai və sosial fəaliyyətlərinin qiymətləndirilməsi;*

*-muxtar respublikamızda ölkə və beynəlxalq səviyyəli yarışların keçirilməsi vasitəsilə gənclərin bu sahədə təcrübəsinin artırılması;*

*-gənclərin respublika, Avropa və dünya səviyyəli tədbirlərdə, konfrans, forum və idman yarışlarında iştirakı və uğurların qazanılması istiqamətində fəaliyyət.*

Muxtar respublikada müəyyənləşdirilmiş dövlət gənclər siyasətinin əsas icraçısı rolunda çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyinin və bu sahədə fəaliyyət göstərən digər qurumların təkcə son 4 il ərzində həyata keçirdiyi tədbirlərə nəzər salsaq, nə qədər böyük işlər görüldüyü məlum olar.



***Gənclərin intellektual inkişafının təmin edilməsi***

Son 4 il ərzində 9 müxtəlifsəviyyəli intellektual yarışın təşkili, "Nuh yurdu" intellektual müsabiqələrinin artıq regional səviyyədə deyil, milli-intellektual müsabiqə səviyyəsində keçirilməsi, 2013-cü ilin 10 dekabrında Naxçıvanın "Xəmsə" Milli İntellektual Oyununun yeniyetmələr arasında III Azərbaycan çempionatına ev sahibliyi etməsi, 2014-cü il fevral ayının 14-də "Hamımızın bir Vətəni var – bu, Azərbaycandır" tədbirləri silsiləsindən məktəblilər arasında "Xəmsə" intellektual bilik yarışının keçirilməsi bu istiqamətdə həyata keçirilən işlərin, sadəcə, kiçik bir hissəsidir.

***Gənclərdə liderlik bacarıqlarının formalaşdırılması***

Bu istiqamət ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və məsuliyyət hissini formalaşdırmaq strateji hədəfi üçün baza rolunu oynayır. Muxtar respublikamızda təşkil edilən müxtəlif treninq və seminarlar, yay məktəbləri məhz bu məqsədə xidmət edir. 11-16 iyul 2011-ci il və 20-30 iyul 2012-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin akt zalında təşkil olunan "Gənclərin Yay Universiteti", 1-8 avqust 2013-cü il tarixdə Ağbulaq İstirahət Mərkəzində keçirilən növbəti yay universiteti bu istiqamətdə keçirilən əsas tədbirlərdir. Hansı ki, bu cür təlimlərdə gənclərdə komanda ruhunun formalaşdırılması və onların cəmiyyətin sosial həyatında aktivliyinin təmin olunması qarşıya məqsəd qoyulur.

***Gənclərin yaradıcılıq potensialının üzə çıxarılması***

Bu istiqamətdə muxtar respublikada həyata keçirilən tədbirlərin sayı ildən-ilə artmaqdadır. Gənclər arasında şeir, rəsm, mahnı, yazı müsabiqələrinin, gənclərdən ibarət özfəaliyyət kollektivlərinin iştirakı ilə konsert proqramlarının təşkili, şən və hazırcavablar klublarının iştirakı ilə mədəni-kütləvi tədbirlərin keçirilməsi məhz yaradıcı gənclərin potensialının üzə çıxarılmasına, onların fəaliyyətinin stimullaşdırılmasına hesablanmış tədbirlərdir. Təkcə 2011-ci ildən bu günə qədər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin iştirakı ilə bu istiqamətdə müxtəlif mərhələlərdən ibarət olan 9 tədbir və layihə reallaşdırılıb.

***Gənclərin vətənpərvərlik tərbiyəsi***

Təbii ki, yuxarıda sadaladıqlarımızla yanaşı, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, onların milli-mənəvi dəyərlərə sadiq tərbiyə olunması Naxçıvan Muxtar Respublikasında dövlət gənclər siyasətinin əsas istiqamətidir. Bu istiqamət keçirilən bütün tədbirlərdə leytmotiv olmaqla yanaşı, həm də gənclər üçün xüsusi hərbi-vətənpərvərlik yarışları təşkil edilir, Vətənə sevgi hissi aşılayan müxtəlif filmlərin pulsuz nümayişi və konsertlərin təşkili işi həyata keçirilir. Vaxtaşırı olaraq milli qəhrəmanlarımızın həyat yolunun təbliği və onların tanıdılması üçün müxtəlif görüşlər, diskussiyalar təşkil edilir.

***Gənclərin ictimai və sosial fəaliyyətlərinin qiymətləndirilməsi***

Hər bir fəaliyyət yalnız nəticə əldə edildiyi zaman effektli olur. Məhz qazanılan nəticələr də gənclərin gələcək fəaliyyətini stimullaşdırır və gələcək fəaliyyət istiqamətini müəyyənləşdirir. Elə bu səbəbdən də gənclərlə işin davamlılığının təmin olunması başlıca şərtdir. Muxtar respublikada gənclərin ictimai və sosial fəaliyyətlərinin qiymətləndirilməsi diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Hər il 2 Fevral – Gənclər Günü ərəfəsində gənclər arasında ilin ən yaxşı müəllimi, həkimi, sahibkarı, rəssamı, əsgəri, zabiti, idmançısı, jurnalisti, alimi, şairi, tələbəsi, kursantı nominasiyalarının müəyyən edilməsi və gənclərin təltif olunması, ictimai həyatda və sosial şəbəkələrdə fərqlənmiş gənclərlə görüşlərin keçirilməsi məhz gənclərlə işin davamlı xarakter aldığının göstəricisidir.

***Muxtar respublikamızda ölkə və beynəlxalq səviyyəli yarışların keçirilməsi vasitəsilə gənclərin bu sahədə təcrübəsinin artırılması***

Muxtar respublikamızda ölkə və beynəlxalq səviyyəli yarışların keçirilməsi təkcə gənclərin inkişafına yox, həm də muxtar respublikamızın tanıdılmasına hesablanıb. Naxçıvan Muxtar Respublikası gənclərinin müvafiq olaraq V, VI, VII konfranslarının keçirilməsi, Azərbaycan gənclərinin forumlarında naxçıvanlı gənclərin fəal və layiqli iştirakının təmin edilməsi, "Naxçıvan Open-2011" (22 aprel-1 may 2011-ci il), "Naxçıvan Open-2012" (28 aprel-6 may 2012-ci il), "Naxçıvan Open-2014" (3 may-13 may 2014-cü il) Beynəlxalq şahmat festivallarının, yunan-Roma güləşi üzrə gənclər arasında "Naxçıvan kuboku" uğrunda beynəlxalq turnirlərin (7-8 may 2011-ci il, 14-16 iyun 2012-ci il, 3-5 may 2013-cü il), ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş gənclər (1994-1996-cı illər təvəllüdlü) arasında sərbəst güləş üzrə "Naxçıvan kuboku" uğrunda beynəlxalq yarışın (may 2014), İçigeki idman növü üzrə "Naxçıvan Open" beynəlxalq turnirinin (11 dekabr 2011-ci il, Şərur), "Heydər Əliyev kuboku" uğrunda boks üzrə beynəlxalq turnirin (9 may-14 may 2012-ci il), MMA Qran-pri üzrə Şərqi Avropa çempionatının (15 dekabr 2012-ci il) və digər beynəlxalq səviyyəli yarışların təşkil edilməsi dediklərimizin bariz sübutudur. Təkcə sadaladığımız beynəlxalq turnirlərdə dünyanın müxtəlif ölkələrindən 1000-ə yaxın idmançının iştirak etməsi Naxçıvan haqqında ən azı 1000 insanın təəssüratı deməkdir.

***Respublika, Avropa və dünya səviyyəli gənclik tədbirlərində, konfrans, forum və idman yarışlarında iştirak və uğurların qazanılması istiqamətində fəaliyyət***

Bu gün naxçıvanlı gənclərin dünyanın müxtəlif ölkələrində keçirilən intellektual yarışlarda iştirakı, ABŞ, Malayziya kimi ölkələrdə Naxçıvanda fəaliyyət göstərən ali təhsil ocaqlarının komandalarının nəinki muxtar respublikamızı, bütövlükdə, Azərbaycanımızı təmsil etməsi də məhz uğurlu gənclər siyasətinin bəhrələridir. İdman sahəsində isə bu uğurlar daha çox nəzərə çarpır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 2011-ci ildən bu günə qədər naxçıvanlı idmançılar Türkiyə, Bolqarıstan, Rusiya,Çexiya, Böyük Britaniya, İran, Macarıstan, Serbiya, Ukrayna, Gürcüstan kimi 10-a yaxın ölkədə keçirilən müxtəlifsəviyyəli beynəlxalq turnirlərdə medallar qazanmış, nəticələr əldə etmiş, ölkəmizin üçrəngli aylı-ulduzlu bayrağını şərəflə dalğalandırmışlar.

Naxçıvanın "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun uzun fasilədən sonra 2013-cü ildə fəaliyyətini yenidən bərpa etməsi, Azərbaycan çempionatının I Divizionundan Premyer-Liqaya vəsiqə qazanması, Naxçıvanda "Real Madrid" Futbol Məktəbinin bölməsinin fəaliyyətə başlaması, muxtar respublikada Stend və Güllə Atıcılığı, Hava və Ekstremal İdman Növləri federasiyalarının yaradılması, Naxçıvanda müasir standartlara cavab verən Naxçıvan Atıcılıq Mərkəzinin istifadəyə verilməsi bu uğurların gələcəkdə daha da artacağına təminat verir.

***Təbii ki, yuxarıda sadaladığımız istiqamətlərdə həyata keçirilən işlər son hədd deyil. Blokada şəraitində olan muxtar respublikada tarix baxımından o qədər də böyük olmayan qısa zaman kəsiyində bu işlərin həyata keçirilməsi muxtar respublika rəhbərinin bu sahəyə göstərdiyi böyük diqqət və qayğının, müvafiq qurumların verilən tövsiyələri əzmlə yerinə yetirmələrinin nəticəsidir.***

Elnur KƏLBİZADƏ

***"Jurnalistin tək-tək dostu olmur, jurnalist hamının dostudur, hamı da jurnalistə dostdur. Əlbəttə, arabərədə yazı-pozusundan razı qalmayanı da tapılır, amma əksəriyyət onun tərəfindədir, bu, jurnalistin uğurudur, zəhmətinin bəhrəsidir. Və indi-indi bu sətirləri yaza-yaza xatirimə M.F.Axundovun dramaturgiyasından qalma bir fikir düşür ki, hər kəsin sənəti onun həyat iksiridir, yəni öz peşənə necə münasibət göstərirsənsə, peşən də səni elə yaşadır. Və bir də oxucu yazımın bu məqamına gəlib çatanda hökmən qəlbində mənə də bir sual ünvanlayacaqdır: bəs sən özün necə, bu peşədən nə qazandın? Əlbəttə, mən dünya malını heç vaxt qazanc, var-dövlət hesab eləməmişəm və bu barədə ən ibtidai təsəvvürüm belə, yoxdur və belə yerdə deyirlər ki, Süleymana qalmayan dünya kimə qalacaq? Amma bu Süleymana qalmayan dünyada qalası şeylər çoxdur və bunların fövqündə bir amil durur: insan olmaq amili, vətəndaş olmaq istəyi, xalqına, millətinə sədaqətlə xidmət etmək təşnəliyi, Vətən yolunda şəhidliyə hazır olmaq ucalığı və Tanrı nə ömür verirsə, bu ömrü ləyaqətlə başa vurmaq qeyrəti".***

## Ağsaqqal jurnalistlə yarımsaatlıq söhbət



Bu sətirlər Naxçıvan Mətbuat Şurasının 2007-ci ildə nəşr etdirdiyi "Jurnalist" kitabının ilk yazısı olan Azərbaycan Respublikasının əməkdar jurnalisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Nurəddin Babayevin məqaləsindən götürülüb. Muxtar respublikamızda fəaliyyət göstərən kütləvi informasiya vasitələri əməkdaşlarının hər birinin özünə ağsaqqal saydığı Nurəddin Babayevin bu qənaətini, bütünlükdə, onun özünə aid etmək olar. Bəs kimdir Nurəddin Babayev?

Bu gün həmkarlarının anadan olmasının 75 illiyini qeyd etdiyi Nurəddin Babayev haqqında ürəkdolusu danışmaq olar. Ancaq mətbuatımızın bu ağsaqqal simasının keçdiyi ömür yolunu bütün detalları ilə oxuculara çatdırmaq bir jurnalist kimi mənim imkanlarım xaricindədir. Odur ki, Nurəddin müəllim haqqında bəzi məqamları oxucularla bölüşəcəyəm. Nurəddin Babayevi uzun illərdir, tanıyıram. Dəfələrlə televiziyada apardığı verilişlərə maraqla baxmışam. Mətbuat səhifələrində dərc olunan yazıları da eləcə maraqla oxumuşam. Mətbuatdan az-çox xəbəri olanlar təsdiq edərlər ki, telejurnalistika ilə qəzet jurnalistikası arasında ciddi fərqlər var. Müəyyən mənada televiziya jurnalistikasının imkanları daha genişdir. Nurəddin müəllimin bacarığı ondadır ki, o, televiziyada deyə bildiklərini qəzetdə də deyə bilir. Məncə, bu, ömrünü jurnalistikaya bağlayan bir insan üçün böyük istedaddır.

**Haşiyə:** Neçə illər əvvəl kənd məktəbində müəllim işləyərkən ailəmizə məxsus olan pay torpaq sahəsində əkdiyim taxıl zəmisinin kənarında dayanmışdım. O vaxt ictimai təsərrüfatlara məxsus olan torpaqlar təzəcə özəlləşdirilmişdi. Torpaq mülkiyyətçilərinin üzləşdikləri problemlər isə çox idi və həmin çətinliklərin aradan qaldırılması üçün zamana ehtiyac vardı. Sahənin kənarında dayanıb düşünürdüm: taxılın yetişib-yetişmədiyini kimdən öyrənim ki, əziyyətlə hasilə gətirdiyim məhsulu vaxtında və itkisiz tədarük edim. Kənddə yaşayan təcrübəli taxılçılara müraciət etməyi qərara aldım. Bu an sahənin kənarına bir avtomobilin yaxınlaşdığını gördüm. Avtomobil yanıma çatıb dayandı. Maşından düşənləri tanıdım. Birinin çiynində kamera var idi, digəri isə televiziya ekranından qiyabi surətdə tanıdığım Nurəddin Babayev idi. Nurəddin müəllim mənimlə çoxdanın tanışı kimi görüşdü, hal-əhval tutdu. Əlini uzadıb bir sünbül qopardı. Ovcunda ovxaladı, üzünə yaxınlaşdırıb qoxuladı, – ətrinə qurban olum, – dedi. Sonra soruşdu:

– Nə üçün biçinə başlamamısınız? Taxıl ki yetişib.

Nurəddin müəllimin bu sözündən sonra intizarıma son qoyulmaqla bu təcrübəli jurnalistin, yuxarıda dediyim kimi, müxtəlif sahələri dərindən bildiyinə inamım bir qədər də artdı.

Nurəddin Babayevi tanıyan tamaşaçı və oxucu onu necə xarakterizə edə bilər? Bu suala öz cavabı: "Hər bir jurnalist üçün vacib şərtlərdən biri həmsöhbət olduğu insanlarla onların başa düşdüyü sadə, anlaşıqlı dildə danışmağı bacara bilməsidir. Təbii ki, bunlar – əkinçi, çoban, taxılçı, fəhlə, çilingər, ticarətçi – xülasə, səninlə gündəlik qaynayıb-qarışan insanlardır və bu insanlara kosmik raketlərin uçuş trayektoriyasını yox, adi, gündəlik həyatı, bu həyatın enişli-yoxuşlu yollarında necə hərəkət etməyi izah etməlisən, həm də onların başa düşəcəyi, anlaya biləcəkləri dildə". İzahata ehtiyac duymadan düşünürəm ki, Nurəddin Babayevin bu qənaəti hər bir jurnalist üçün ən qiymətli tövsiyədir.

...50 ildən artıqdır ki, Nurəddin Babayev öz qələmi ilə yol gedir. Bu yolda hər cür çətinliklərlə üzləşib, ancaq bir dəfə bu yoldan qayıtmaq istəyib. Deyir ki, Naxçıvan radiosunda təzəcə işə başlamışdım. Baş redaktor bir kənar müəllifin 5-6 səhifəlik yazısını redaktə etmək üçün mənə verdi. "Arpa çayı daşa bilməz" adlı yazının müəllifi o vaxt ali məktəbin ikinci kursunda təhsil alan İsa Həbibov idi. Yazını oxudum. İkinci kurs tələbəsinin belə yüksək səviyyədə yazdığını görəndə düşündüm ki, gör işlədiyim təşkilatda bələləri nə qədərdir. Və burada işləməyimin mənim üçün çətin olacağını fikirləşib buradan getmək istədim. Təcrübəli həmkarlarım məni bu fikirdən daşındıra bildilər. Bu gün jurnalistikada nə qazanmışamsa, o vaxt mənimlə çiyin-çiyinə çalışan yaşlı həmkarlarıma borcluyam.

Bu an ürəyimdən Nurəddin müəllimə ünvanlamaq üçün bir sual keçir:

***– Nurəddin müəllim üçün jurnalistika nə deməkdir?***

Gülümsünür, bir qədər düşünür, üzünə təbəssüm qonur:

– İxtisasca alman dili müəllimiyəm. Ancaq ömrüm boyu televiziya və radioda işləsəm də, heç vaxt özümü jurnalist adlandırmamışam. Həmişə bu adın böyüklüyündən, əzəmətindən qorxmuşam, ehtiyatlanmışam. Jurnalist adı çəkiləndə birinci olaraq yadıma Həsən bəy Zərdabi düşür. Və bir də jurnalist adı çəkiləndə böyük Mirzə Cəlil gəlib durur gözümün qənşərində. Mirzə Cəlilin yüz il öncə az qala bütün dünyaya meydan oxuyan "Molla Nəsrəddin" jurnalı və bu jurnalda çalışan, lakin jurnalist diplomu olmayan neçə-neçə müəllif bu gün jurnalist olmağa hazırlaşan hər bir gənc üçün örnəkdir. Mirzə Cəlil başqa planetli deyildi, "gözünü açan gündən bu dünyanı qaranlıq görmüşdü" və bu qaranlıq dünya da təkcə Xudayar bəyin kəndi deyildi, bütövlükdə, Azərbaycan kəndlərinin hamısının büründüyü zülmət dünya idi. Və Mirzə Cəlil də elə bu zülmət dünyasından çıxmışdı və əsrdaşlarını bu zülmət dünyadan çıxarmaq üçün özü də zülmətdə yaşamalı idi, necə ki yaşayırdı. Bu baxımdan Mirzə Cəlil jurnalistikası, "Molla Nəsrəddin" jurnalı jurnalistika tariximizdə əbədiyaşar bir səhifədir. Və bu səhifəni öyrənən, ondan bəhrələnən, onu özünə müəllim, ustad, məktəb hesab eləyən jurnalist xoşbəxtdir. Odur ki, jurnalist adına, jurnalist peşəsinə həmişə böyük hörmət və ehtiramla yanaşmaqla bu sahədə çalışmağımdan sonsuz qürur və fəxarət duymuşam və bu gün də duyuram.

Nurəddin Babayevin adını eşidəndən üzübəri oxuduğum yazılarını, hazırladığı televiziya verilişlərini göz önünə gətirəndə bu qocaman jurnalistin operativliyini, aktual mövzulara müraciətini, analitik və publisist yazılara və verilişlərə üstünlük verməsini, tənqidi materiallar hazırlayarkən qərəzsizliyini, müraciət etdiyi mövzulara müdaxiləsini görürəm. Yeri gəlmişkən onu da demək istəyirəm ki, Naxçıvan mətbuatında fəaliyyət göstərən jurnalistlər içərisində tənqidi mövzulara ən çox müraciət edən də məhz Nurəddin Babayevdir. O, nail olduğumuz inkişaf və tərəqqinin yeni bir mərhələyə qədəm qoyduğu bir dövrdə rastlaşdığımız neqativ hadisələrə əsl jurnalist gözü ilə yanaşmağı bacarır. Bu yazılarda, yenə təkrar edirəm, ən başlıca keyfiyyət Nurəddin müəllimin qərəzsizliyi, baş verənləri düzgün qələmə almasıdır. Eyni zamanda müşahidə etdiyi nöqsanların haradan qaynaqlandığını, bütün bunların "olmaya bilərdi" qənaətinə gəlməsi tənqidi materiallarda ortalığa qoyulur, araşdırmalar və paralellər aparılır və yaxşı haldır ki, nöqsanların aradan qaldırılması yolları da göstərilir.

75 yaşını qeyd etdiyimiz Nurəddin Babayev təqaüddə olsa da, bu gün də qələmini yerə qoymayıb. O, muxtar respublika həyatının bütün sahələrinə nüfuz edir, regionda gedən güclü inkişaf proseslərinin mətbu salnaməsini yaratmaq üçün öz imkanlarından maksimum istifadəyə səy göstərir. Qələmə aldığı hər hansı mövzunun işlənməsində özünəməxsus priyomlardan istifadə edir.

Hörmətli oxucu, Nurəddin Babayev haqqında qələmə aldığım bu qeydlərimi onun öz sözləri ilə başlamışdım. Və "Kimdir Nurəddin Babayev?" sualının cavabına əlavələr etmək istəyirəm: həyatda göründüyü kimi olan, olduğu kimi görünən, sənətinə qəlbən bağlanan təcrübəli jurnalist, dövlətçiliyimizə sadiq vətəndaş, bu sahədə çalışanlara etdiyi köməyi vəzifə borcu sayan gözəl insan. Bu yerdə yadıma gənc həmkarlarımdan birinin söhbəti düşür. Həmkarım deyir ki, Naxçıvan televiziyasında təcrübəyə gəldiyi ilk günlərdə siyasi mövzuda bir yazı hazırlayıb Nurəddin müəllimə təqdim edib. Yazı ilə tanış olan N.Babayev ona: get kəndinizdən bir yazı yaz, – tapşırığını verib. Tapşırığı yerinə yetirən gəncin həmin yazısını oxuyan Nurəddin müəllim ona: səndən yaxşı jurnalist olacaq, – deyib, həmin gün rəhbərlikdən gəncin işə qəbul olunması əmrini alıb.

Bu da Nurəddin müəllimin kimliyini şərtləndirən amillərdən biri.

***Bu gün Nurəddin Babayevin 75 yaşı tamam olur. Ağsaqqal jurnalistimizi ad günü münasibətilə "Şərq qapısı" qəzetinin kollektivi adından təbrik edir!***

✍ **Muxtar MƏMMƏDOV**

## İnam

***Naxçıvanın müdafiə potensialının əsasında təkcə mövcud olan və gün keçdikcə müasirləşən baza və arsenal dayanmır. Naxçıvanın müdafiə potensialında başlıca faktor Naxçıvan insanının inamıdır. O inam ki, o eşidilən sözlər əsasında deyil, görülən işlər əsasında formalaşıb. Məhz elə bu səbəbdən də boş sözlər vasitəsilə bu inamla manipulyasiya cəhdləri elə sözlərin xarakteri kimidir. Yəni boşdur...***

Bu inam həmin inamdır ki, XX əsrin 90-cı illərinin əvvəllərində gerçək müstəqilliyin banisinin ətrafında sıx birləşmiş və müstəqilliyi yenidən Azərbaycana qaytarmışdı. Azərbaycanı düşmənlərdən – həm daxili, həm də xarici düşmənlərdən qurtarmışdı. O xarici düşmənlərdən ki, onlar Odlar diyarı Azərbaycanı "tutmaq" üçün maşa rolunu oynamaqla uzun illərdən bəri gizli saxladıqları məkrli niyyətləri gerçəkləşdirməyə çalışmışdılar. O daxili düşmənlərdən ki, onlar xalqın inamı ilə, sözün əsl mənasında, oynamış, bu inamı birləşdirib qələbəyə çevirmək əvəzinə, "kreslo davası"nda vasitəyə çevirmişdilər.

Naxçıvandakı inam strateji inamdır. Cənab Prezidentin sözləri ilə ifadə etsək, "Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir". Deməli, strateji nöqtələr uğrunda mübarizədə – güc və informasiya mübarizəsində mövqelərə zərbə vurmaq istənilən halda düşmən tərəfindən edilə bilər. İnformasiya müharibəsinin ən təhlükəli silahları isə şayiə təbliğatı və provokasiyadır. Hansı ki, şayiə təbliğatının bir neçə gün öncə açıq-aşkar şahidi olduq. Nədənsə "etibarlı yerli mənbə" rolunu oynayanların, Naxçıvandan kənarda oturub özünü qəhrəman kimi göstərməyə çalışanların məqsədləri bizə XX əsrin 90-cı illərində Qarabağ və ətraf ərazilərin işğalını xatırlatdı. "Artıq rayon boşalıb, ermənilər rayona daxil olurlar" kimi ifadələri, yəqin ki, çoxumuz yaxşı xatırlayırıq. Belə olan halda dezinformasiyanı yayanların və cidd-cəhdlə bunu sübuta yetirməyə çalışanların indi iki yolu qalır: bunu bilərəkdən ediblərsə, düşmən, bilməyərəkdən ediblərsə, sözün ən yaxşı mənasında desək, "həddindən artıq sadəlövh" olduqlarını etiraf etmək.

Yoxsa, bəlkə bəziləri düşünürlər ki, biz yenə də unutqan xalqıq. Eyni sindromu təkrarlamaqla, ermənilərin də etiraf etdikləri kimi, Dağlıq Qarabağdan daha vacib olan Naxçıvanı da təhvil vermək olar.

Yanılırsınız, cənablar! Naxçıvan ona görə Naxçıvandır ki, burda karvanın hərəkət istiqaməti kənardan gələn səslərdən asılı deyil.

✍ **E.KƏLBİZADƏ**

## "Oxu, qavra" adlı mütaliə yarışı keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası istiqamətində növbəti tədbir təşkil olunub.***

İyunun 18-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud 12 uşağın iştirakı ilə "Oxu, qavra" adlı mütaliə yarışı keçirilib.

Yarış iştirakçıları bir saat ərzində elektron kitabxananın kataloqunda olan bədii ədəbiyyatdan seçilmiş hekayəni oxumaqla onun məzmununa aid tərtib olunan test suallarını cavablandırıblar. Ən çox sualı düzgün cavablandıran iştirakçı yarışın qalibi olub.

Yarışda ilk üç yeri tutan sağlamlıq imkanları məhdud uşaqlara hədiyyələr, digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar təqdim edilib.

Bu tədbir eyni zamanda sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasına – mütaliə vərdişi yaratmaqla onların intellektual səviyyələrinin yüksəlməsinə xidmət edir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Həkim briqadası Biçənəkdə kütləvi profilaktik müayinələr aparmışdır

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası Şahbuz rayonunun Biçənək kəndində əhalini kütləvi profilaktik müayinələrdən keçirmişdir. Terapevt, pediatr, cərrah, kardioloq və digər yüksəkixtisaslı həkimlərlə təmsil olunan həkim briqadası tərəfindən gün ərzində 25 terapevtik, 23 pediatrik, 21 kardioloji, 19 cərrahi müayinə aparılmışdır. Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülmüş, onlara ambulator kartlar açılmış, kənd üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilmişdir. Xəstələrin müayinəsində Biçənək kənd həkim ambulatoriyasının tibb bacıları həkim briqadasına köməklik göstərmişlər.

Əhalinin kütləvi dispanserizasiyasının nəticələri, uşaqların icbari, 20 yaşlı sakinlərin, ahılların dispanserizasiyasının icra vəziyyəti yoxlanılmış, mövsümi xəstəliklər, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti barədə səhiyyə maarifi işləri aparılmış, xəstəliklərin profilaktikası ilə bağlı tibbi məsləhətlər verilmişdir. Eyni zamanda peyvəndlərin icra vəziyyəti, ambulator qəbul, evə çağırış, ailə, dispanser xəstələrin, hamilələrin və peyvəndlərin qeydiyyatı jurnalları yoxlanılmış, çatışmazlıqların aradan qaldırılması üçün lazımi məsləhətlər verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İşaxtaran vətəndaşların və tətil günlərində işləmək istəyən tələbələrin nəzərinə!

25 iyun 2014-cü il tarixdə saat $11^{00}$-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində əmək yarmarkası keçiriləcək.

Dövlət və özəl müəssisələrin iştirak edəcəyi yarmarkada ixtisasınıza və peşənizə uyğun iş yeri əldə edə bilərsiniz.

Əmək yarmarkasında iştirak edənlər şəxsiyyət vəsiqəsini, əmək kitabçasını, tələbələr isə təhsil almaları haqqında sənədi təqdim etməlidirlər.

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti***
***Əlaqə telefonu: 545-32-33, 545-18-35***

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi Valeh Vəliyevə, anası **SƏXAVƏT XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Ordubad Rayon Şöbəsinin kollektivi Valeh Vəliyevə, anası **SƏXAVƏT XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 541